# TRANSSƏRHƏD XRAM ÇAYININ MÜASİR EKOLOJİ VƏZİYYƏTİ

**Namazova L.Q., Hacıyeva H.F.**

*Bakı Dövlət Universiteti*
*Leylanamazova1234@gmail.com*

Xram çayı Kür çayının sağ qolu olub, öz başlanğıcını Kiçik Qafqaz dağlarının Ərcivan dağ silsiləsindən (2422 km hündürlükdən) götürür. Çayın uzunluğu 201 km-dir. Gürcüstan Respublikasının Barjomi bələdiyyəsindən başlayaraq axan çay Azərbaycan Respublikasının Qazax rayonunun II Şıxlı kəndində Kür çayına tökülür.

Xram çayı və onun qollarının keyfiyyəti Gürcüstan Respublikasının Təbiəti Mühafizə Nazirliyi nəzdində fəaliyyət göstərən Monitorinq araşdırma mərkəzi tərəfindən öyrənilmişdir. 2000-2001-ci illərdə aparılan kimyəvi monitorinqlərin nəticələrinə əsasən çayda asılı bərk maddələrin, hidrokarbonatların, xlor ionlarının, sulfat ionlarının, azot birləşmələrinin və neftin konsentrasiyasında kəskin artım müşahidə olunmuşdur.

Gürcüstan və Azərbaycan Respublikasının birlikdə apardığı monitorinqlərin nəticələrinə görə $NH_4$ üçün göstərilən dəyərlər bəzən Xram çayında mövcud standartları 16 dəfə üstələyir. Nitrit ionlarının miqdarı isə normadan 5 dəfə çoxdur. Xram çayı və onun qollarının suları yüksək miqdarda biogen maddələrlə çirklənir, belə ki, çayın suyunda orta fenol miqdarı qəbul edilmiş həddən 14 dəfə artıqdır, yağ tərkibi isə o qədər də çox deyil.

Xram çayında olan toksiki maddələrdən biri də Cu və onun birləşmələridir, belə ki, onlar qəbul edilmiş normanı 100 dəfə ötür. Sudakı yüksək Cu tərkibi suda təbii olaraq meydana gələn misin və mis mədənlərindən sızmaların nəticəsidir. Kazretula çayında yerləşən Madneuli mis mədəni və mis zənginləşdirmə zavodu ətrafında aparılan araşdırmalar göstərir ki, Cu konsentrasiyaları, Zn, Cd və sulfat ionlarının miqdarı suyun keyfiyyət standartlarını dəfələrlə üstələyir. Suyun yüksək turşuluğuna görə bu metallar suda həll olmuş formada mövcud olurlar.

Xram çayı hövzəsində SSRİ-nin dağılmasından əvvəl inkişaf etmiş sənaye var idi. Xram çayının hövzəsindəki əsas sənaye şəhərləri bunlardır: Rustavi, Vanadzor, Spitak, Marnueli, Bolnisi, Alaverdi, Axtala, Qardabani, Tumanyan, Kazreti, Şamluq, Şulaver, Ayrum və.s. Hazırda çay sularını çirkləndirən əsas sənaye müəssisələri - Vanadzordaki "Prometoy – Xemprom" QSC, Axtaladaki filiz hasilatı və emalı müəssisəsi, Alaverdi "Manes – Valleks" zavodu, Cu konsentratı istehsal edən "Madneuli"SC, "Kvartiste"qızıl mədəni emalı zavodu hesab olunur. Adları qeyd edilən sənaye müəssisələrinin heç birində sənaye tullantı sularının təmizləyici qurğusu fəaliyyət göstərmir. Nəticədə sənaye çirkab suları təmizlənmədən, birbaşa açıq su hövzələrinə axıdılır və çay sistemini çirkləndirir.

Xram çayı hövzəsi mis konsentratı istehsal edən və açıq üsulla işləyən

"Madneuli "SC və Axtala filiz mədəni və emalı müəssisəsinin tullantıları ilə çirklənir. Açıq üsulla mədən əməliyyatları yüksək turşuluğa malik mədən suları yaradır ki, bu da yerüstü və yeraltı su mənbələri üçün təhlükə yaradır. Xram çayının müasir ekoloji vəziyyətinə təsir edən amillərdən biri də yaşayış məntəqələrinin tullantı sularıdır. Belə ki, tullantı suları kollektorlar vasitəsilə birbaşa şəhərlərdən kənarlaşdırılır və təmizlənmədən açıq su hövzələrinə axıdılır. Rustavi və Qardabani şəhərlərindən axıdılan məişət tullantı suları ilkin mexaniki təmizlənmədən sonra Xram çayına axıdılır. Bolnisi şəhərinin isə ümumiyyətlə kanalizasiya sistemi yoxdur, təmizlənməmiş sular birbaşa Xram çayının qollarından biri olan Maşavera çayına axıdılır.

Xram çayı hövzəsinin əsas yaşayış məntəqələri olan Vanadzor, Spitak, Bolnisi, Dmanisi, Qardabani və Rustavidə olan bərk tullantı poliqonlarında hal-hazırda vəziyyət çox acınacaqlıdır. Həmin poliqonlar nizamsız səpələnmiş zibil yığınlarının sahələrinə çevrilmişdir. Külək zibilləri sovuraraq ətrafdakı torpaq sahələrini və su obyektlərini çirkləndirir. Septik çənlərin təmizlənməsi sistemləri işlək vəziyyətdə deyil, nəticədə bu septik çənlər birbaşa yerə boşaldılır və həm yerüstü, həm də yeraltı suların çirklənməsinə səbəb olur.